İlham Nicatxan oğlu Şabiyev 1977-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Tibb Universitetini bitirib, Füzuli, Laçın və Kəlbəcər rayonlarında hərbi həkim kimi xidmət edib. Ehtiyatda olan tibb xidməti mayorudur. Vətənpərvər mövzüda şəhidlərimizə, qəhrəmanlarımıza aid şeirlər yazır. Türkiyə Cümhuriyyətində 4 dəfə televiziya proqramlarında iştirak edib, şeirlərin səsləndirib. Müəllifin bəzi şeirlərini təqdim edirik:

# Nur üzlü şəhidim

Yoxdur sorğu, yox sual
Başlasa da qiyamət
Dinmir şeytan, olur lal
Ona vermədin möhlət.

Axıtdığın damla qan
Şəhid olan torpaqda
Hər qarışını suvaran
Yanar şam tək ocaqda.

Sənin adın pak, təmiz
Aramızda öz səsin.
Dalğalar qovur dəniz
Sən üçün vurur ləpəsin.

Tarla yanmasın susuz
Necə ki, yağış narın.
Şəhid parlayan ulduz
Şəhid mənim baharım.

Sən üçün Allah ayəsin
Sürə vardır Quranda
Oxuyanda hər Yasin
Olur dindən, imandan.

Sənin dəyişdi dünyan
Əməllərin, sözlərin
Ürəklərdə var duyan
Sənin nurlu gözlərin.

Bir adını çəkməsən
Sanki danışdın, dindin
İsdədin demək nəsə
Sanki güldün, sevindin.

İşıq saçır gün, ay nur
Əsəndə sərin külək
Sənlə duyuruq qürur
Şəhid yaşayır demək.

# Vətən tərifi

*Vətən, millətin adı*
*Onu Yurdu, məkanı,*
*Mübarizin, Poladın*
*On üçün axılan qanı.*

*Üzeyirin, Cavadın*
*Onun sözü, bəstəsi*
*Şəhid olan Salatın*
*Qarabağ şikəstəsi.*

*Vətən, qırpmayan gözü*
*O, mübariz əsgərin*
*İradəsidir, dözüm*
*Bəslər sevgisin dərin.*

*Vətən, ağlayan səsi*
*Doğulan tək körpənin*
*Can qoyan, son nəfəsin*
*On üçün qurban gedənin.*

*Qürbətdə gələn adı*
*Səslənəndə hər dəfə*
*Vətən adı ucadır*
*Söylənən tək müzəffər.*

*Şəhidlərin ruhu şad*
*Adın səslənən kimi*
*Ol firavan, sən abad*
*Yaz çiçəklənən kimi.*

*O, Vətən Şəhriyarın*
*Həsrət çəkən gözləri*
*Görməyə ixtiyarı*
*O, yanğısı sözləri.*

*Ürək vurmur Vətənsiz*
*Damarımnan axmır qan*
*İnsan ruhdur bədənsiz*
*Olsa səndən nigaran.*

# Ana rəsmi

Yoxdur elə bir rəssam
Ana şəkli çəkməsin
Keçirtməsin həyəcan
Əldə fırça əsməsin.

Ola bilmir o rəssam
Anasın düşünməsin
Duyğulanmasın o an
Çəkəndə sevinməsin.

Ana sığmır fırçaya
Analar cənnətindir
Necə səs salır boya
Onun ətri mənimdir.

Qırpmır ana gözlərin
Sanki şəkil canlıdır,
Nəfəsin çəkir dərin
Rəssam həyəcanlıdır.

Analar ağlamasın
Sanki şəkil sevinir
Simalar oxşamasa
Ürəkləri eynidir.

Çəkə bilərmi rəssam?
Şəkli göz yaşarmasa
Qala bilmirəm anam,
Mən sənə yalvarmasam.

Çək rəsmini görünsün
Kövrək ana ürəyi
Görək necə döyünsün
Səndən budur istəyim.

Yoxdur elə bir boya
Onun rəngi bilinsin,
Anasından kim doyar?
Varmı bilən söyləsin?